Görüşdə Azərbaycan Respublikası Təhsil Nazirliyinin, o cümlədən İtaliyanın Təhsil, Universitet və Tədqiqatlar Nazirliyinin məsul əməkdaşları və hər iki ölkənin təhsil müəssisələrinin nümayəndələri iştirak ediblər.

Görüş iştirakçılarını salamlayan təhsil naziri Misir Mərdanov Azərbaycanla İtaliya arasında diplomatik əlaqələrin qurulmasının 20 illik yubileyinə həsr olunmuş konfransın əhəmiyyətindən bəhs edərək müvafiq görüşlərin iki ölkə arasındakı münasibətlərin daha da inkişafına, eləcə də qarşılıqlı təhsil əlaqələrinin genişlənməsinə müsbət təsir göstərəcəyinə inandığını bildirib. Nazir təqdimat-məruzəsində ölkəmizin inkişaf yolu, üzləşdiyi problemlər və Azərbaycanın təhsil sistemi haqqında qonaqlara ətraflı məlumat verib. Ölkə təhsilinin müasir tələblər səviyyəsinə yüksəldilməsi üçün həyata keçirilən islahatlar və ayrı-ayrı təhsil pillələri üzrə qazanılmış uğurlar barədə söhbət açan Misir Mərdanov İtaliya ilə təhsil sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsində Azərbaycanın maraqlı olduğunu vurğulayıb.

Nazir Azərbaycan Respublikası Prezidentinin 16 aprel tarixli, 2090 nömrəli sərəncamı ilə təsdiq edilmiş "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində kadr hazırlığını nəzərdə tutan ali təhsil müəssisələri siyahısına İtaliyanın 24 ali təhsil müəssisəsinin adının daxil edildiyini bildirib. Dövlət Proqramı çərçivəsində 3 nəfər azərbaycanlı gəncin İtaliyanın ali təhsil müəssisələrini uğurla başa vurduğunu söyləyən Misir Mərdanov 4 nəfərin isə magistratura səviyyəsi üzrə bu ölkədə təhsil aldığını qeyd edib.

Daha sonra qonaqları maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb, qarşılıqlı əlaqələrin perspektivləri müzakirə olunub.

İtaliyanın Təhsil, Universitet və Tədqiqatlar Nazirliyinin təmsilçisi Ezio Sina, La Sapienza Universitetinin professoru Angelo Filippini, "Dante Alegheri" italyan dili və mədəniyyəti mərkəzinin baş katibinin müavini Rafaella Fiorani, Azərbaycan Respublikası Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Tamilla Əliyeva və başqaları Azərbaycanla İtaliya arasındakı qarşılıqlı təhsil əlaqələrinin möhkəmləndirilməsi üçün geniş perspektivlərin olduğunu qeyd edib, bu istiqamətdə müvafiq səylərin artırılmasının zəruriliyini nəzərə çatdırıblar.